AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Pərakəndə ticarət və (və ya) ictimai iaşə sahəsində fəaliyyət göstərirsiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

- nağd pul hesablaşmalarını Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsilə həyata keçirməlisiniz.

**Eyni zamanda bilməlisiniz ki, nəzarət-kassa aparatının çeklərində əlavə olaraq aşağıdakı məlumatlar əks etdirilməlidir:**

- təsərrüfat subyektinin (obyektinin) vergi orqanındakı uçot kodu;
- malın sürətli məlumat kodu (Quick Response Code).

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Nağd pul hesablaşmalarının aparılması zamanı qanunvericiliyin tələblərinin pozulmasına görə aşağıdakı maliyyə sanksiyalarının tətbiqinə məruz qala bilərsiniz:**

**Təqvim ili ərzində belə hallara:**

- **birinci dəfə** yol verildikdə **1.000 manat**;
- **ikinci dəfə** yol verildikdə **3.000 manat**;
- **üç və daha çox dəfə** yol verildikdə **6.000 manat** məbləğində.

Xatırladırıq ki, göstərilən maliyyə sanksiyası 2019-cu il yanvarın 1-dən 1 il müddətində belə hala birinci dəfə yol verildikdə vergi orqanı tərəfindən rəsmi (yazılı) xəbərdarlıq edildikdən sonra həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı tətbiq olunur.

Vergi qanunvericiliyinin tələbləri ilə bağlı əlavə məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.